Mayın 21-də Bakı şəhərindəki "Ankara məktəbi" məktəb-liseyin yeni tədris korpusunun açılış mərasimi keçirilib.

Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və məktəbin şagirdləri ümummilli lider Heydər Əliyevə həsr olunan şeirlər ifa edib.

Təhsil naziri Misir Mərdanov yeni tədris korpusunun açılışının əlamətdar bir hadisə olduğunu deyərək məktəbin pedaqoji və şagird kollektivini bu münasibətlə təbrik edib.

Nazir qeyd edib ki, 2006- ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilən "Ankara məktəbi" məktəb- liseyi ən müasir avadanlıqlarla tam təchiz olunub, bu gün isə məktəbin həyətində 4 mərtəbəli 240 şagird yerlik və geniş idman zalı olan yeni tədris korpusu şagird və müəllimlərin ixtiyarına verilir.

Nazir məktəbin Azərbaycanla-Türkiyə arasında körpü olacağına ümidvar olduğunu deyərək kollektivə ən xoş arzularını çatdırıb. "Ankara məktəbi" məktəb-liseyin Türkiyənin Ankara şəhərindəki "Heydər Əliyev adına ilk öyrətim okulu" ilə qardaşlaşmış təhsil müəssisəsi olduğunu qeyd edən nazir hər iki məktəbin gələcəkdə uğurlu layihələr həyata keçirəcəklərinə əmin olduğunu bildirib.

Misir Mərdanov dövlətimizin başçısı cənab İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğını xüsusilə vurğulayıb, burada yaradılan yüksək səviyyəli şəraitin həmin qayğının təzahürü olduğunu diqqətə çatdırıb.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Səlahəddin Dikmən də çıxış edərək pedaqoji kollektivi və şagirdləri təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıblar.

Təhsil ocağının direktoru Səmayə Eynullayeva rəhbərlik etdiyi məktəb haqqında ətraflı məlumat verərək bildirib ki, burada 1400 şagirdin təlim- tərbiyəsi ilə 140 müəllim məşğul olur.

Sonda qonaqlar yeni tədris korpusu ilə yaxından tanış olub.